# II BÖLMƏ.
# DÖVLƏT VƏ YERLİ İDARƏETMƏ. TİCARƏTİN, BİZNESİN VƏ MARKETİNQİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

UOT 353

*Firuzə Nəcəf qızı ƏLİYEVA*
*i.f.d., AKU,*
*İbrahim Aslan oğlu ASLANOV*
*magistr*
*ibrahimaslanli68@gmail.com*

## AZƏRBAYCANDA YERLİ ÖZÜNÜİDARƏETMƏNİN İNKİŞAF PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

*Xülasə*

**Tədqiqatın məqsədi** - Azərbaycanda Bələdiyyələrin nəzəri məsələlərini araşdırmaq və dünya ölkələrində yerli özünüidarəetmənin yaranması və inkişaf mərhələlərinin müəyyənləşdirilməsi, beynəlxalq təcrübənin Azərbaycanda tətbiq edilməsinin qiymətləndirilməsi.

**Tədqiqatın metodologiyası** – tədqiqat işi yazıların mövzusunun daha səmərəli araşdırılması üçün müqayisəli təhlil və ümumiləşdirmə metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** - Tədqiqat işində aparılan araşdırmalardan istifadə edərək Azərbaycanda xarici ölkələrin yerliözünüidarəetmə təcrübəsinin tətbiqi perspektivlərini müəyyənləşdirmək olar.

**Tədqiqat nəticələri -** Təqdiqatlar göstərir ki, Beynəlxalq təcrübədə yerli özünüidarəetmə təşkilatının əsas prinsiplərindən biri səlahiyyətlərin müəyyənləşdirilməsidir. Strateji baxımdan gələcəkdə Azərbaycanda dövlət hakimiyyəti orqanları və yerli özüidarəetmə orqanları arasında səlahiyyət bölgüsündə subsidiyalılıq prinsipinin tətbiqi ən vacib məsələlərdən biri hesab edilməli, ölkələrin yerli özünüidarəetmə orqanlarının iş təcrübəsinin tətbiqi qiymətləndirilməlidir.

***Açar sözlər: Beynəlxalq təcrübə, bələdiyyələr, yerli özünüidarəetmə, müqayisə, səmərəlilik, qarşılıqlı münasibətlər.***

### *Giriş*

Bildiyimiz kimi, son illər Azərbaycanda sosial, siyasi və iqtisadi sahədə olduğu kimi, idarəetmə sistemində da uğurlu islahatlar aparılmış və yerli özüidarəetmə qurumları olan bələdiyyələr yaradılmışdır.

Azərbaycanda yeni cəmiyyət quruculuğunun basqa sahəsində olduğu kimi, 1995-ci ildən etibarən bələdiyyələrin nəzəri-təcrübi əsaslarını qoymaq istiqamətində ciddi iş aparılmışdır. Azərbaycan Respublikasının Dünya birliklərinə interqrasiyası sürətlənmişdir.

Yerli və mərkəzi hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyət mexanizmlərinin təkmilləşdirilməsi dövlət idarəetməsinin səmərəliliyini yüksəltməyin vacib istiqamətidir. Bu məqsədlə xarici ölkələrin təcrübəsi araşdırılmışdır.

Dövlət idarəetməsi və yerli özünüidarəetmə daim qarşılıqlı əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən institutlardır. Bunların hər ikisi ictimai hakimiyyət forması olub, vahid məqsəd və vəzifələrə, eyni sosial təyinata malik olması ilə xarakterizə olunurlar. Hər iki qrup problemlərin həllinə şərait yaradan prinsiplərdən biri kimi dünya praktikasında dövlət hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı fəaliyyət və əməkdaşlığı qəbul edilmişdir. Müasir

dövrdə ayrı-ayrı dövlətlərdə yerli özünüidarəetmənin bu ölkənin siaysı, sosial-iqtisadi inkişaf səviyyəsi və tarixi ənənələri ilə bağlı öznünəməxsus modelləri yaranmışdır.

Bələdiyyə yerli özünüidarəetmə orqanı olub, həm də qanunla bələdiyyə qurumlarının nizamnamələrinə uyğun yaradılmış seçkili orqandır. Bələdiyyələr haqqında qəbul edilmiş hüquqi qanunlar düşünülmüş şəkildə elmi əsaslara söykənməlidir.

İnkişaf etmiş ölkələrin təcrübəsində yerli özünüidarə demokratiyanın məhsulu, demokratiyanın mənası isə xalqın hakimiyyəti kimi qiymətləndirilməlidir.

İdarəetmənin konkret obyektləri ayrı-ayrı müəssisələrdən, birlik və şirkətlərdən, bütövlükdə cəmiyyətdə baş verən iqtisadi, siyası, hüquqi və ideoloji proseslərdən ibarətdir.

Hazırda yerli özünüidarə dünya ölkələrinin əksəriyyətində Konstitusiya quruluşunun əsası, xalq hakimiyyətinin spesifik forması, əhalinin yerli əhəmiyyətli məsələlərinin müstəqil həllinə qərar verən orqan sayılır.

**Dövlət və yerli özünüidarəetmə və onların inkişaf problemləri**

Dövlət idarəetməsi və yerli özünüidarəetmə daimi qarşılıqlı əlaqədə olan və bir-birinə qarşılıqlı təsir göstərən institutlardır. Bu, onların ictimai idarəetmə sistemində tutduqları yerləri və ictimai inkişafdakı rolları ilə şərtlənir.

Dövlət və bələdiyyə idarəetməsinin qarşılıqlı inkişaf etməsi üçün aşağıdakı bir sıra vacib problemlər öz həllini tapmalıdır. Bu zaman əsasən iki qrup problemin həlli nəzərdə tutulur. Yerli özünüidarəetmə sisteminin inkişafının dövlət tərəfindən təmin olunması ilə bağlı olan birinci qrup problemlər Konstitusiya prinsiplərinin həyata keçirilməsi üçün zəruri olan siyası, normativ-hüquqi, təşkilati, maliyyə, iqtisadi və inzibati idarəetmə şəraitinin yaradılmasını nəzərdə tutur.

Yerli özünüidarəetmənin dövlət hakimiyyət sistemi ilə vəhdətinin, onun dövlət və əhali qarşısında cavabdehliyinin təmin olunması ikinci qrup problemlərdən ibarətdir.

Dövlət orqanları ilə bələdiyyələr arasında münasibətlərin mühüm tərəflərindən biri də yerli özünüidarəetməyə verilən Konstitusiya zəmanətlərinin təmin olunmasından ibarətdir.

Dövlət və yerli özünüidarəetmə orqanları arasında qarşılıqlı münasibətlərin inkişafı və yerli özünüidarəetmə sahəsində dövlət siyasətini formalaşdırmaq baxımından ölkə Prezidentinin, Nazirlər Kabinetinin, Milli Məclisin yanında yerli özünüidarəetmə şurasının yaradılmasına da böyük ehtiyac vardır [6, s. 273].

Bütövlüklə, dövlət və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı fəaliyyəti çox mühüm və əhatəli problemdir və cəmiyyətin həyat fəaliyyətinin bütün siyası, sosial, iqtisadi, maliyyə və digər tərəflərini əhatə edir. Dövlət yerli özünüidarəetmə orqanları arasında səmərəli qarşılıqlı münasibətlər sisteminin formalaşdırılması üçün yerli real özünüidarəetmələrə bəyan olunmuş deyil, məhz real zəmanətlərin təmin olunması tələb olunur.

Bütün idarəçilik növləri içərisində ən mürəkkəbi çoxşaxəli dövlət idarəçiliyidir. İdarəçilik idarəolunan obyektin və şəraitin qarşıya qoyulan məqsəddən kəskin şəkildə asılı olduğu bir fəaliyyətdir. Dövlət bəzən bu qədər çox müxtəlifliyi nəzərə almaq iqtidarında olmur. Bu, idarəçilikdə müəyyən problemlər yaradır. Bunun üçün onun imkanları azlıq edir və imkanlar bəzən düzgün bölüşdürülmür. Bir çox hallarda qarşıya qoyulan məqsədə çatmaq mümkün olmur və ortaya yeni problemlər çıxır. Problemlərin həllinə şərait yaradan prinsiplərdən biri kimi dünya praktikasında dövlət hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanlarının qarşılıqlı fəaliyyət və əməkdaşlığın qəbul edilməsidir.

Yerli özünüidarəetmə sadəcə bu səbəblərdən yaranmır. Yerli özünüidarəetmə qədim tarixə malikdir və onun yaranmasına səbəb təkcə dövlət idarəetməsində işlərin bərabər bölünməsi deyil.

Dövlət və yerli özünüidarəetmə orqanları arasındakı münasibətlərin ikinci forması maliyyə-iqtisadi münasibətləridir. Əgər təşkilati-hüquqi münasibətlər dövlət və yerli özünüidarəetmə orqanları arasında əlaqələrin ümumi strukturunu və ya sistemini yaradırsa, maliyyə-iqtisadi münasibətlər bu sistemin fəaliyyətinin maddi təminatçısı funksiyasını həyata keçirir. Hansı formal statusa və hansı səlahiyyətlərə malik olmasına baxmayaraq, əgər yerli hakimiyyət kifayət qədər maddi-maliyyə resurslarına malik deyilsə, real olaraq müstəqil idarəetmə hakimiyyətinə çevrilə

bilməz. Təcrübə göstərir ki, idarəetmə səviyyələri arasında münasibətlərdən ən mürəkkəbi, məhz maliyyə-iqtisadi münasibətlərdir və idarəetmə səviyyələrinin bir-birindən müstəqillik dərəcəsi maliyyə-iqtisadi münasibətlərdə özünü daha çox büruzə verir.

Yerli özünüidarəetmənin yaranması zərurəti həm də idarəetmənin özünün ümumi məqsədlərindən doğur. İstənilən idarəçilikdə məqsəd qarşıya qoyulan hədəflərə ən optimal səmərəli üsullarla nail olmaqdır. Özünüidarəetməni törədən zəruri səbəblərdən biri də yerli özünüidarəetmənin səmərəliliyi məsələsi olmuşdur. Yerli özünüidarəetmənin əmələ gəlməsi səbəbi əsas iki faktordur:

Birincisi, dövlət öz işlərinin bir hissəsini müəyyən subyektlərə verir və bununla da idarəçilik imkanlarına qənaət olunur.

İkincisi, idarəçilik verilən subyektlərə məsələləri öz mövqeyi-nəzərincə öz maraqlarına uyğun həll etmək imkanı verməklə onun qarşıya qoyulan məqsədlərə çatmaq imkanını stimullaşdırır.

Yerli özünüidarəetmənin və dövlət hakimiyyətinin qarşılıqlı münasibətləri aşağıdakı prinsiplərə əsaslanır:

- Yerli özünüidarəetmənin qanunla müəyyən edilmiş çərçivələrdə fəaliyyət göstərməsi;
- Yerli özünüidarəetmə orqanlarının öz səlahiyyətlərinə malik olması və bu səlahiyyətlər çərçivəsində müstəqilliyi;
- Yerli özünüidarəetmənin öz səlahiyyətlərini həyata keçirmək üçün kifayət qədər resurslara malik olması.

Bələdiyyələr yerli resursların ən səmərəli şəkildə istifadəsini həyata keçirən, yerlərdə nəticə etibarı ilə inkişafı təmin edən qurumlardır. Yerli səviyyədə iqtisadi problemlərin həlli, zəruri sahələrdə investisiya qoyuluşları, yerli vergi və ödənişlərin toplanması, məşğulluğun təmin olunması məqsədilə istehsalat və qeyri-istehsalat müəssisələrinin balanslı fəaliyyəti, yoxsulluğun azaldılması, işsizliyin ləğvi, mədəni-sosial səviyyənin yüksəldilməsi bilavasitə bələdiyyələrin iqtisadi fəaliyyəti ilə bağlıdır.

Azərbaycan Respublikasının Konstitusiyasına görə hakimiyyətin mənbəyi xalq hesab olunur. Bu baxımdan dövlətin ən vacib vəzifəsi xalqın sosial rifahının yaxşılaşdırılmasıdır.

Yerli özünüidarəetmə səviyyəsində səhiyyə və təhsil sisteminin fəaliyyətinin yaxşılaşdırılması, elmin inkişafına təkan vermək, mədəniyyət sahəsində görülən tədbirlər, əhalinin sosial təminat sisteminin formalaşdırılması, demoqrafik siyasətin aparılması və s. bu kimi məsələlər bələdiyyələrin sosial mühitinin tərkib hissəsidir.

Azərbaycanda bu gün bələdiyyələrin fəaliyyəti üçün normal hüquqi baza formalaşdırılmışdır. Bununla belə, bu sahə bir sıra boşluqlar və ziddiyyətlərdə mövcuddur. Bu günə kimi yerli özünüidarəetmə orqanlarına ayrı-ayrı dövlət səlahiyyətlərinin verilməsinin ümumi prinsipləri ilə bağlı dövlət hakimiyyət orqanlarının qəbul etdiyi qərarlar nəticəsində bələdiyyələrin əlavə xərclərinin ödənilməsi qaydaları haqqında, dövlət hakimiyyət orqanları ilə yerli özünüidarəetmə orqanları arasında səlahiyyət hədlərinin dəqiqləşdirilməsi haqqında və s. qanunlar qəbul olunmamışdır. Respublikamızda bələdiyyə qurumlarının yaradılması zamanı bəzi məsələlərə kifayət qədər diqqət yetirilməmişdir.

Respublikamızda yerli özünüidarəetmənin müasir vəziyyətinin təhlili göstərir ki, hakimiyyətin müxtəlif səviyyələrində (mərkəzi, şəhər, rayon) yerli özünüidarəetmə ideyalarının tam başa düşülməsi və dərk olunmasından danışmaq hələlik tezdir və rəhbərlərin bir çoxu yerli özünüidarəetmənin yeni keyfiyyətini görmür. Hazırda yerli özünüidarəetmə orqanları, faktiki olaraq, daha çox dövlət hakimiyyətinin bürokratik əngəllərini özündə cəmləşdirir və daha çox bələdiyyələri seçən əhalidən deyil, yuxarı hakimiyyət orqanlarından tam asılı vəziyyətdədir. Bu cür xoşagəlməz hal yerli özünüidarəetmə insitutunun hakimiyyət səlahiyyətlərinin subyekti kimi, vətəndaşların rifah halının yaxşılaşdırılması üçün isə dövlət hakimiyyət orqanları ilə qarşılıqlı fəaliyyətdə olan subyekti kimi formalaşdırılmasının hələlik tam başa çatmadığını göstərir.

Azərbaycanda özünüidarəetmənin qarşısında duran ən böyük problemlərdən biri də bələdiyyələrdə resurs çatışmazlığıdır. Büdcə normativlərinin qiyməti minimal dövlət standartlarına və sosial normativlərə əsaslanmalıdır.

Müasir dövlətlərdə inzibati-ərazi bölgüsündə böyük müxtəliflik müşahidə olunur. Bir çox hallarda tarixi ənənələr iqtisadi məqsədəuyğunluqla bağlıdır. Yerli özünüidarəetmənin özünəməxsus xüsusiyyətə, müxtəlifliyə malik olması onların yerli şəraitdən birbaşa asılılığını meydana gətirir.

Araşdırmalar göstərir ki, inkişaf etmiş dünya ölkələrində yerli özünüidarəetmənin formalaşmasında çoxlu sayda müxtəlifliklər mövcud olmuşdur.

Anqlo-sakson modeli ilə formalaşmış bələdiyyələr ABŞ-da, Böyük Britaniyada, Kanadada, Avstraliyada öz səlahiyyətləri daxilində sərbəst fəaliyyət göstərir. Bu modelin özünəməxsus fərqləndirici xüsusiyyətləri var. Burada formal muxtariyyət və yerli özünüidarəetmənin tam sərbəstliyi mövcuddur. Yerlərdə yerli özünüidarəetmə orqanlarına nəzarət edən mərkəzi hökumətin səlahiyyətli nümayəndəsi olmur.

Fransız və ya kontinental ailə modeli ilə formalaşmış bələdiyyələr – Fransada, İtaliyada, Belçikada, Hollandiyada, İspaniyada və bir sıra ölkələrdə sərbəst fəaliyyət göstərir, lakin yerlərdə hakimiyyət təşkilinin Fransa modeli anqlo-sakson modelindən nəzərəçarpaçaq qədər fərqlənir, belə ki:

- Yerli özünüidarəetmənin və yerlərdə dövlət idarəçiliyinin, seçkililiyin və təyinatlılığın kombinə edilməsi;
- Yerli özünüidarəetmə sisteminin müəyyən iyerarxiyası, aşağı pillələrin yuxarı pillələrə tabeçiliyi;
- Yerli səviyyədə yerli özünüidarəetmə orqanlarında dövlət nəzarətinin həyata keçirilmə səahiyyətinə malik olan mərkəzi hakimiyyətin xüsusi nümayəndəsinin mövcud olması və s. [6, s. 289].

Yerli özünüidarəetmənin təşkilati xüsusiyyətləri ölkədə mövcud olan yaşayış məntəqələrinin müxtəlifliyi ilə, bu və ya digər yerli özünüidarəetmə modelinin seçilməsindən asılıdır. Yerli özünüidarəetmənin mahiyyətini düzgün başa düşmək üçün onun əsas prinsiplərini daha ətraflı öyrənmək lazımdır. Yerli özünüidarəetmə prinsipləri öz əksini yerli özünüidarəetmə haqqında Avropa Xartiyasında tapmışdır ki, bu da Avropa Şurasının ölkələri üçün təməl rolu oynayır.

Azərbaycan Respublikası Konstitusiyası, bələdiyyələrlə bağlı ölkə qanunları da Avropa Xartiyasının müddəalarına əsaslanaraq Azərbaycanın bütün yerli özünüidarəetmə sisteminə xas olan ümumi prinsipləri müəyyən edir.

Yerli özünüidarəetmənin əsas prinsiplərinə aşağıdakılar aiddir:

1. Yerli əhəmiyyətli məsələlərin əhali tərəfindən müstəqil həll olunması;
2. Cəmiyyətin və dövlətin idarəetmə sistemində yerli özünüidarəetmənin təşkilatı baxımından əlahiddəliyi;
3. Yerli özünüidarəetmənin maddi və maliyyə resurslarının onun səlahiyyətlərinə uyğunluğu;
4. Yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərin əhali qarşısında cavabdehliyi;
5. Yerli özünüidarəetmənin həyata keçirilmə formalarının müxtəlifliyi;
6. İnsan və vətəndaş hüquq və azadlıqlarına əməl olunması;
7. Yerli özünüidarəetmənin təşkili və fəaliyyətində qanunçuluq;
8. Yerli özünüidarəetmənin fəaliyyətində aşkarlıq;
9. Yerli özünüidarəetmənin fəaliyyətinə kollegiallıq və vahid rəhbərlik;
10. Yerli özünüidarəetmənin dövlət zəmanətləri [5, s. 103].

**Azərbaycanda yerli özünüidarəetmənin inkişaf problemi və onun həlli yolları**

Azərbaycanda həyata keçirilən əks-mərkəzləşdirmə siyasətinin əsas məqsədi dövlət idarəetməsi əsaslarının demokratikləşdirilməsindən, ölkənin sosial-iqtisadi inkişafının həm cari, həm də perspektiv məsələlərinin həlli zamanı uyğun idarəetmə səviyyəsində dövlətin öz funksiyalarının səmərəli şəkildə yerinə yetirilməsinə şərait yaratmaqdan, demokratik dövlətin əsası kimi yerli özünüidarəetmənin tətbiqi və real inkişaf etdirilməsindən ibarətdir.

Bu baxımdan, respublikamızda dövlət idarəetmə sisteminin əks-mərkəzləşdirilməsi siyasətinin reallaşdırılması yolu ilə yerli özünüidarəetmə sisteminin formalaşdırılması prosesi ölkədə demokratiyanın inkişafı, hüquqi dövlət və cəmiyyət idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində atılan ən əhəmiyyətli addımlardan biri kimi qiymətləndirilməlidir.

Müstəqillik qazandıqdan sonra respublikamızda iqtisadi və siyası vəziyyətin dəyişməsi, mülkiyyət formalarının çoxnövlülüyünün yaranması, təsərrüfat əlaqələrinin mürəkkəbləşməsi, hakimiyyətin əks-mərkəzləşdirilməsi müəyyən funksiyaların yerlərə ötürülməsi zərurəti yaratmışdır. Bundan başqa, müəyyən ərazidə yaşayan konkret insanlar da öz hüquq və azadlıqlarını reallaşdırmaqda məhdudiyyətlərlə rastlaşır ki, bu da nəinki mərkəzi dövlət hakimiyyəti orqanları tərəfindən qəbul olunan qərarların, hətta məzmunu əsasən, mərkəzi hakimiyyət tərəfindən müəyyən olunan yerli əhəmiyyətli mühüm qərarların qəbuluna təsir imkanlarını heçə endirirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı bu prosesləri sürətləndirdi və onun rəhbərliyi altında Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması və 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunması bu prosesin başlanğıcını qoydu.

Bələdiyyələrin statusu haqqında qanunvericiliyə görə, yerli özünüidarəetmə orqanları dövlət hakimiyyət orqanları sisteminə daxil deyildir. Bu prinsip nəzərdə tutur ki, bələdiyyələr daha ümumi qanunvericilik müddəalarını pozmadan öz daxili inzibati strukturlarını özləri elə müəyyən etsinlər ki, bu, yerli tələbatlara cavab versin və səmərəli idarəetməni təmin etsin.

Yerli özünüidarəetmə orqanlarının strukturu əhali tərəfindən müstəqil şəkildə müəyyənləşdirilir. Yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərin dövlət orqanları və dövlətin vəzifəli şəxsləri ilə qarşılıqlı münasibətləri də bu prinsip əsasında qurulur.

Qanunvericilikdə müəyyən olunmuşdur:

- dövlət hakimiyyət orqanları və vəzifəli şəxsləri tərəfindən yerli özünüidarəetmə orqanlarının yaradılması, onların vəzifəli şəxslərinin təyin olunması yolverilməzdir;
- dövlət hakimiyyət orqanları və vəzifəli şəxsləri tərəfindən yerli özünüidarəetmənin həyata keçirilməsi yolverilməzdir;
- yerli özünüidarəetmənin vəzifəli şəxsləri dövlət qulluqçuları kateqoriyasına aid edilmir;
- yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərin qəbul etdiyi qərarlar yalnız bu qərarları qəbul etmiş orqanlar və vəzifəli şəxslər tərəfindən dayandırıla və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər.

Qanunvericilik yalnız yerli özünüidarəetmənin fəaliyyətinə dövlət orqanları tərəfindən müdaxilədən müdafiəni təmin etmir, eyni zamanda həm də onların sıx qarşılıqlı fəaliyyətinin əsaslarını müəyyənləşdirir.

Bələdiyyələr qanunvericiliklə onlara verilmiş ayrı-ayrı dövlət səlahiyyətlərini reallaşdırmaqla, həmçinin dövlət hakimiyyət orqanlarının qəbul etdiyi qərarları həyata keçirməklə, qanuna uyğun olaraq yerli səviyyədə dövlət orqanlarının vəzifə və funksiyalarının həyata keçirilməsinə yardım göstərməklə dövlət hakimiyyət orqanları ilə qarşılıqlı münasibətlərdə olurlar. Dövlət orqanları yerli özünüidarəetmə orqanlarının fəaliyyətində qanunçuluğu təmin edirlər.

Qanunçuluq Azərbaycan dövlətçiliyinin əsas konstitusiya prinsiplərindən biridir. Dövlət hakimiyyət orqanları, yerli özünüidarəetmə orqanları, vəzifəli şəxslər, vətəndaşlar və onların birlikləri ölkə konstitusiyasına və qanunlara əməl etməyə borcludurlar.

Qanunçuluq yerli özünüidarəetmənin əsas zəmanətlərindən biridir.

Yerli özünüidarəetmə konstitusiyaya və qanunlara uyğun olaraq həyata keçirilir. Qanunvericilik yerli özünüidarəetmə hüququnun məhdudlaşdırılmasını qadağan edir. Bu prinsip tələb edir ki, yerli özünüidarəetmə orqanlarının təşkili və fəaliyyəti qanun əsasında və qanun çərçivəsində həyata keçirilməlidir.

Dövlət yerli özünüidarəetməyə zəmanət verməklə həm də yerli özünüidarəetmə sistemində qanunçuluğa əməl olunmasını da təmin edir. Burada söhbət yerli məsələlərin həlli üzrə yerli özünüidarəetmə orqanlarının qəbul etdiyi qərarların məqsədəuyğunluğu və keyfiyyətinə nəzarətdə deyil, onların hüquqi normalara əməl etməsinə, yəni qanunauyğunluğuna nəzarətdən gedir. Yerli özünüidarəetmə haqqında Avropa Xartiyası yerli özünüidarəetmənin fəaliyyətinə dövlət nəzarətinin meyarlarını aşağıdakı kimi müəyyən edir:

1. Bələdiyyələrin fəaliyyətinə istənilən inzibati nəzarət yalnız Konstitusiya və ya qanunla nə-

zərdə tutulmuş formalarda və hallarda həyata keçirilə bilər.

2. Bələdiyyələrin fəaliyyətinə istənilən inzibati nəzarət, bir qayda olaraq, Konstitusiya prinsiplərinin qanuniliyinə əməl olunmasını təmin etmək üçün nəzərdə tutulmalıdır.

Yerli özümüidarəetmə orqanlarının və vəzifəli şəxslərinin fəaliyyətində qanunçuluğa əməl olunması, ilk növbədə, bu iş üçün cavabdehlik dövlət orqanı (Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzi) tərəfindən həyata keçirilir. Bələdiyyələrin təşkili və fəaliyyətində qanunçuluğun təmin olunması məhkəmə orqanları tərəfindən də həyata keçirilir. Yerli özünüidarəetmə orqanlarının və vəzifəli şəxslərinin hərəkətlərindən və qərarlarından məhkəmə qaydasında şikayət verilə bilər.

Nəzərə almaq lazımdır ki, bələdiyyələrin təşkili və fəaliyyətində qanunçuluğa əməl olunmasına bələdiyyənin nümayəndəli orqanı tərəfindən də nəzarət edilir, bu da bələdiyyələrin nizamnaməsində öz əksini tapmış olur. Bələdiyyə qurumunun nizamnaməsinin konsitusiyaya və qanunlara uyğunluğuna nəzarət nizamnamənin dövlət qeydiyyatı aparan mərkəzi dövlət orqan (Ədliyyə Nazirliyi) tərəfindən həyata keçirilir.

Bu gün Azərbaycan dövlət suverenliyi və müstəqillyi islahatlar yolu ilə demokratiyaya, dünyəvilik və hüquqi dövlətdə xarakterizə olunan yeni keyfiyyətlərə transformasiya olmaqdadır.

Azərbaycanda yerli özünüidarəetmə sisteminin formalaşdırılmağa başladığı vaxtdan ötən müddət ərzində respublikamızın ayrı-ayrı bələdiyyələrinin fəaliyyətində konkret məsələlərin uğurlu həlli ilə bağlı bəzi bələdiyyə qurumlarının səmərəli fəaliyyəti haqqında fikir söyləmək mümkündür. YÖ-nün əsas prinsiplərini əldə rəhbər tutan Avropa Xartiyası Avropa Şurasının üzvü olan ölkələrə bu və ya digər prinsip arasında seçim hüququ verir.

Azərbaycanda müasir tələblərə cavab verən sərbəst bələdiyyə idarəetmə sistemi yaratmaq və inkişaf etmiş dünya təcrübəsini tətbiq etmək üçün aşağıdakı problemləri həll etmək vacib şərtdir:

– yerli icra hakimiyyəti orqanları və struktur bölmələri tərəfindən bələdiyyələrin səlahiyyətinə aid edilmiş məsələlərə müdaxilə halları bələdiyyələrin normal faaliyyətinə mənfi təsir göstərir;

– dövlətin verdiyi məcburi səlahiyyətlərin reallaşdırılması üçün yerli özünüidarəetmə orqanlarında kompensasiya mexanizminin olmaması;

– yerli büdcənin vergi və qeyri-vergi gəlirlərinin onların xərc tələb edən səlahiyyətlərinə uyğun olmaması;

– qanunla müəyyən olunmuş vergi növlərinin yerli büdcələrin müstəqilliyini təmin etmək üçün minimal zəruri gəlir bazasını formalaşdırmağa imkan verməməsi;

– hakimiyyət strukturları tərəfindən yerli özünüidarəetməyə verilmiş iqtisadi, siyası və hüquqi zəmanətlərə məhəl qoyulmaması;

– bələdiyyə qulluğunda peşəkar səviyyənin aşağı olması;

– dövlət səviyyəsində bələdiyyələrin sosial-iqtisadi və maliyyə təsərrüfat fəaliyyətinin uçotunun pis aparılması və s.;

– yerli özünüidarəetmənin ərazi əsasları ilə bağlı məsələlərin həlli və əhalinin rəyinin nəzərə alınması mövcud idarəetmə sisteminin infrastruktur tamlığını pozur və s.

Bələdiyyələrin sosial, sosial-iqtisadi və ekoloji mühiti daha ətraflı inkişaf etdirmək üçün bu sahədə inkişaf proqramlarının hazırlanması və yerinə yetirilməsi məqsədi ilə aşağıdakı problemlərin həlli vacibdir.

**Yerli sosial müdafiə proqramları** bələdiyyə tərəfindən müəyyən vətəndaşlar kateqoriyasına dövlət sosial təminatından əlavə sosial təminatlar müəyyən edir. Həmin təminatlar mütəmadi və birdəfəlik ola bilər. Yerli sosial müdafiə və sosial inkişaf proqramlarında məsqəd tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli sosial inkişaf məsələlərini həll etməkdir.

**Yerli iqtisadi inkişaf proqramlarında** məqsəd dövlətin həyata keçirdiyi inkişaf proqramlarında nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli iqtisadi inkişaf məsələlərini həll etməkdir. Həmin proqramlar aqrar, sənaye, rabitə, nəqliyyat və digər sahələri əhatə edə bilər. Yerli iqtisadi inkişaf proqramlarında bələdiyyə torpaqlarından və dövlətin bələdiyyələrə verdiyi əmlakdan səmərəli istifadə yollarını göstərir.

**Yerli ekoloji proqramlarda** məqsəd dövlətin həyata keçirdiyi ekoloji proqramlarda nəzərdə tutulmayan və ya onlara əlavə olaraq yerli əhəmiyyətli ekoloji təmizlik məsələlərinin həllinə yerli əhalinin hamılıqla cəlb edilməsidir. Həmin proqramlara yerli şəraitdə mövcud olan ekoloji tarazlığın qorunub saxlanılması, bələdiyyə ərazisinin yaşıllaşdırılması və abadlaşdırılması, məişət tullantılarının toplanması və emalı, suyun, havanın, torpağın hər cür çirklənmədən qorunması, qonşu bələdiyyələrlə birgə ekoloji tədbirlərin həyata keçirilməsi və yerli əhəmiyyətli digər tədbirlər daxil edilə bilər.

Problemlərin təhlili göstərir ki, yerli özünüidarəetmənin təşkili və həyata keçirilməsi sahəsində vəziyyəti yaxşılaşdırmaq üçün hakimiyyətin bütün qolları arasında həm üfüqi, həm də şaquli bölgü təmin olunmazsa, bu problemlər əhalinin həm bələdiyyələrə, həm də dövlət hakimiyyətinə inamının zəifləməsinə gətirib çıxarır. Bu problemlərin həlli dövlətin fəaliyyəti, yerli özünüidarəetmənin inkişafı sahəsində dövlət siyasəti çərçivəsində həyata keçirilməlidir.

Azrəbaycanda yerli özünüidarəetmənin inkişafı sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi yaxın gələcəkdə əhalinin, yerli özünüidarənin və dövlət hakimiyyətinin birgə qarşılıqlı fəaliyyətdə olduğu sistemin formalaşmasına gətirib çıxarmalıdır.

### *Nəticə*

Dövlət və bələdiyyə idarəetməsinin qarşılıqlı inkişaf etməsi üçün bir sıra vacib problemlər öz həllini tapmalıdır. Dünya təcrübəsi göstərir ki, müxtəlif ölkələrdə bələdiyyə birlikləri forma etibarı ilə bir-birindən fərqlənsə də onların arasında elə bir ciddi mahiyyət fərqi yoxdur.

Araşdırmalar göstərir ki, Azərbaycanda yerli özünüidarəetmə (bələdiyyələrin) orqanları inkişaf etmiş xarici ölkələrin yerli özünüidarəetmə sisteminin təcrübəsindən istifadə etməli, Azərbaycan bələdiyyəsinin inkişaf tendensiyalarını yüksəltməlidir. Beynəlxalq təcrübədə yerli özünüidarəetmənin təşkilinin əsas prinsiplərindən biri onun müstəsna səlahiyyətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Strateji baxımdan, gələcəkdə Azərbaycanda dövlət hakimiyyət orqanları və yerli özünüidarəetmə orqanları arasında səlahiyyət bölgüsündə subsidiyalılıq prinsipinin tətbiqini ən vacib məsələlərdən biri hesab etmək və inkişaf etmiş ölkələrin yerli özünüidarəetmə orqanlarının iş təcrübəsini tətbiq etmək vacib məsələlərdəndir.

### ƏDƏBİYYAT

1. “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu. 2 iyul 1999.
2. Bələdiyyələr haqqında sənədlər toplusu, “Qanun”. Bakı, 2008.
3. Bələdiyyələrin beynəlxalq təcrübəsi, siyası və iqtisadi islahatlar mərkəzi. Bakı, 2001.
4. Bələdiyyələr haqqında, şərhlər, təcrübələr, sənədlər”, “Avroasiya fondu”. Bakı, “Qanun”, 1999.
5. İbrahimov İ.A. “Bələdiyyələrin kadr problemləri və onların həlli yolları”. Dövlət İdarəçiliyi, 2010, N4.
6. İbrahimov İ.A. “Bələdiyyə idarəçiliyinin beynəlxalq təcrübəsi”. Bakı, 2014.
7. İbrahimov İ.A. “Bələdiyyə idarəciliyi”. Bakı, 2018.

***Фируза Наджаф кызы Алиева***
***доктор философии по экономическим наукам,***
***Азербайджанский Университет Кооперации,***

***Ибрагим Аслан оглы Асланов***
***магистрант***
***ibrahimaslanli68@gmail.com***

### Проблемы местного самоуправления в Азербайджане и их решения

### *Резюме*

**Цель исследования**: Целью данного исследования является изучение теоретических вопросов, стоящих перед муниципалитетами в Азербайджане, организации и этапов разви-

тия местного самоуправления в других странах, а также оценка применения международного опыта в Азербайджане.

**Методология исследования**: В исследовании использовались методы сравнительного анализа и обобщения.

**Практическая ценность исследования:** Используя проведенное исследование, можно определить перспективы применения опыта местного самоуправления зарубежных стран в Азербайджане.

**Результаты исследования**: Исследования показывают, что в международной практике одним из основных принципов организации местного самоуправления является определение исключительных полномочий. Со стратегической точки зрения, применение принципа субсидирования в разделении полномочий между органами государственной власти и местного самоуправления в Азербайджане в будущем следует считать одним из важных вопросов и применение опыта местного самоуправления в развитых странах должно быть принято во внимание.

***Ключевые слова: международная практика, муниципалитет, местное самоу¬правление, сравнение, эффективность, взаимоотношения.***

***Firuza Najaf Aliyeva***
***PhD in economics,***
***Azerbaijan Cooperation University;***
***Ibrahim Aslan Aslanov***
***master's candidate***
***ibrahimaslanli68@gmail.com***

**Problems of Local Self-Government in Azerbaijan and Their Solutions**

***Summary***

**Research objective**: The purpose of this paper is to study theoretical issues facing municipalities in Azerbaijan and the organization and development of local self-government in other countries, as well as to evaluate the application of international practice in Azerbaijan.

Research methodology: Comparative analysis and generalization methods were used in the research process.

**Research application**: Using the results of the research, it is possible to determine the prospects of the application of the international practice of local self-government in Azerbaijan.

**Research results**: Studies show that in international practice, one of the main principles of self-government implementation is designation of exclusive powers. From a strategic point of view, in the future, the application of the principle of subsidies in the division of powers between public and local self-government authorities in Azerbaijan should be deemed important and experience of local self-government in developed countries should be taken into consideration and applied accordingly.

***Key words: international practice, municipalities, local self-government, comparison, productivity, mutual relations.***